# FHN-in təyyarə ilə yola saldığı növbəti humanitar yardım Türkiyəyə çatıb



Məlumat verildiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyə Respublikasında baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə Fövqəladə Hallar Nazirliyinin növbəti humanitar yardımı fevralın 10-da təyyarə ilə qardaş ölkəyə yola salınıb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, humanitar yardımı aparan təyyarə artıq Adana Hava Limanına enib. 200 ədəd çadır və 183 ədəd qızdırıcıdan ibarət humanitar yardım aidiyyəti üzrə təhvil verilib.

Azərbaycan. - 2023.- 11 fevral.- S.2.